

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# Şərq qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 42 (23.454)

*29 fevral 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik

## *Rəsmi xronika*

Fevralın 28-də Bakı şəhərində Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsindəki yeraltı piyada keçidinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsi avtomobillərin və piyadaların daha sıx olduğu ərazilərdən biridir. Məhz bu baxımdan da keçidin inşası böyük önəm daşıyır. Yeraltı piyada keçidinin tikintisinə 2018-ci ilin noyabr ayında başlanılıb.

* * *

Həmin gün Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı keçirilib.

Dövlətimizin başçısı toplantıda iştirak edib.

Toplantıda nitq söyləyən Prezident İlham Əliyev Məşvərət Şurasının son illərdə səylərin gücləndirilməsinə və Cənub Qaz Dəhlizinin reallaşmasına mühüm töhfə verdiyini, Cənub Qaz Dəhlizinə üzv ölkələrin tərkibinin ümumi məqsədləri birləşdirdiyini və bu layihə əsasında əməkdaşlığın nadir formatının yaradıldığını vurğulayıb.



## Azərbaycan-BMT əlaqələrinin inkişafı davamlı xarakter daşıyır

***1992-ci il martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycan bu təşkilata üzv seçilmişdir. Təşkilatın 181-ci üzvü olan Azərbaycanın üçrəngli dövlət bayrağı həmin gün Nyu-Yorkda qaldırılmış, may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. Bu, Azərbaycan xalqının müstəqil və suveren dövlətə sahib olmasının dünya tərəfindən hüquqi olaraq tanınması demək idi.***

Azərbaycanın BMT ilə 28 illik əməkdaşlığı beynəlxalq sahədə bir sıra uğurların qazanılmasına yol açmışdır. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı BMT ilə əlaqələrin sistemli şəkildə qurulmasına imkan vermişdir. Belə ki, ölkəmizin bu qurumda təmsil olunmasını yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev BMT-nin 50 illiyinə həsr edilmiş təntənəli tədbirdə demişdir: ***"Biz tarixdə ilk dəfə müstəqil Azərbaycan Respublikasının dünya birliyində bərabərhüquqlu yer tutduğuna görə fəxr edirik".*** Dahi şəxsiyyət bu nüfuzlu qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etmişdir. Müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə məhz ulu öndər Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək Azərbaycan, Qafqaz regionu və ümumilikdə, dünya üçün həyati əhəmiyyət kəsb edən qlobal məsələlərlə bağlı ölkəmizin mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır. 2000-ci ilin sentyabr ayında BMT-də minilliyin sammitində çıxışı zamanı da ulu öndər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyini bir daha bəyan etmişdir. Ölkəmizin təşəbbüsləri nəticəsində BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmiş və bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını bir daha təsdiq edərək işğalçı qüvvələrin ölkə ərazisindən dərhal çıxarılması tələbini irəli sürmüşdür. Təəssüf ki, həmin qətnamələrin müddəaları indiyə kimi yerinə yetirilməmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunu layiqincə davam etdirən ölkə başçısı cənab İlham Əliyev BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bu qətnamələrin hələ də yerinə yetirilmədiyini vurğulayaraq onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını irəli sürmüşdür. Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra Baş Məclisin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilmişdir. 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasının gündəliyində 20-ci bənd kimi duran "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" qətnamə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək vermiş, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Dövlət başçısı 2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərək təşkilatın üzvlərinin diqqətini bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəltmişdir. Ölkə rəhbəri Ermənistanın münaqişə zamanı çox ağır beynəlxalq cinayətlər törətdiyini, Azərbaycan ərazilərinin 20 faizini işğal etdiyini, işğal zamanı xalqımıza məxsus tarixi və mədəni abidələrin vəhşicəsinə dağıdıldığını bildirmişdir. BMT Baş Assambleyasının 2017-ci il sentyabrın 20-də Nyu-Yorkda keçirilmiş 72-ci sessiyasında dövlət başçısının dərin məzmunlu çıxışı da xarici siyasət sahəsində dövlətimizin prinsipial mövqeyini və prioritetlərini növbəti dəfə dünyaya nümayiş etdirmişdir.

Azərbaycan həqiqətlərinin dünya birliyinə tanıdılmasında yüksək tribuna rolunu oynayan BMT ilə əlaqələrin inkişafında son onillikdə daha böyük uğurlar əldə olunmuşdur. 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə 2011-ci ilin oktyabrında keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürən Azərbaycanın 155 səs toplaması, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi tarixə düşməsi bunu bir daha təsdiq edir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərindən biridir. Ölkəmiz 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında Təhlükəsizlik Şurasına sədrlik etmişdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Azərbaycan Respublikası bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail olmuşdur.

Azərbaycan həm də BMT-nin müxtəlif orqanları – Təhlükəsizlik Şurasının Terrorizmə Qarşı Mübarizə Komitəsi, İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması haqqında Müqavilə Təşkilatı ilə əlaqələr yaratmışdır. Müxtəlif sahələri əhatə edən əməkdaşlıq fəaliyyəti 2019-cu ildə də davam etdirilmişdir. Ötən il BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatı uğurla təqdim olunmuş və iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilmişdir.

BMT-nin Naxçıvan Muxtar Respublikası ilə əlaqələri də davamlı xarakter daşıyır. Belə ki, 1997-ci ilin mayında Birləşmiş Millətlər Təşkilatının rezident əlaqələndiricisi Naxçıvana səfər etmişdir. Səfər çərçivəsində burada görüşlər keçirilmiş, muxtar respublikanın blokada şəraiti, iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən işlər və digər məsələlər barədə müzakirələr aparılmışdır. BMT nümayəndələri 2013-cü ilin may ayında muxtar respublikaya növbəti səfər etmişlər. Ötən dövrdə muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə layihələri icra olunmuşdur. 2016-cı il mayın 12-15-də Naxçıvan Dövlət Universitetində "BMT Modeli" konfransı keçirilmiş, 2017-ci ilin oktyabrında Naxçıvan Biznes Mərkəzində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsinin iştirakı ilə "Sığınacaqla bağlı müraciətlərin yönləndirilməsi mexanizminin təkmilləşdirilməsi" mövzusunda regional təlim təşkil olunmuşdur. 2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı missiyasını uğurla yerinə yetirməsi həm də BMT-nin dünyada sülhün və təhlükəsizliyin təmin olunması işinə töhfə kimi dəyərləndirilmişdir. 2019-cu ildə isə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olmuşdur. Həmçinin Naxçıvan Biznes Mərkəzində əsas icraçı tərəfdaşı BMT-nin İnkişaf Proqramı olan və Avropa İttifaqının maliyyələşdirdiyi "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsinin konfransı olmuşdur. Ümumilikdə, indiyədək BMT tərəfindən muxtar respublikada çoxsaylı layihələr həyata keçirilmişdir.

BMT ilə Azərbaycan arasında əməkdaşlıq yüksək səviyyədədir və ölkəmizin hərtərəfli inkişafı beynəlxalq qurumun diqqət mərkəzindədir. Bu gün Azərbaycanın BMT-də nüfuzlu ölkə kimi qəbul olunması da ölkəmizin ötən dövrdə üzv dövlətlər tərəfindən layiqli və etibarlı tərəfdaş kimi tanınmasının nəticəsidir.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

2020-ci ilin fevral ayının son 15 günü ərzində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində bir sıra qərarlar qəbul edilmişdir. Nazirlər Kabinetinin 2020-ci il 20 və 27 fevral tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə qərarlar qəbul edilmişdir. Dəyişikliyə əsasən muxtar respublikaya idxal olunan kartof toxumunun fevral, mart, aprel aylarında idxal gömrük rüsumlarının dərəcələri "0"a endirilmişdir. Bu da kartof əkini sahəsinin artmasına və məhsul bolluğuna imkan yaradacaqdır. Digər dəyişikliyə əsasən isə muxtar respublikaya idxal olunan bir sıra alkoqollu içkilərin idxal rüsum dərəcələrində dəyişiklik edilmişdir.

Qəbul edilmiş digər qərarlardan biri "Naxçıvan Muxtar Respublikasında arıçılıqla bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" 2009-cu il 13 avqust tarixli 57 nömrəli və "Arıçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında 2010-cu il 2 fevral tarixli 9 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqındadır. Sözügedən qərara uyğun olaraq arıçılıq məhsullarının minimum keyfiyyətinin qida təhlükəsizliyi sahəsində texniki normativ-hüquqi aktların tələblərinə cavab verməsinə dövlət nəzarətini Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirir. Bu qərarda "Həvəskar və peşəkar arıçılıqla məşğul olma", "Bal arısı cinslərinin və populyasiyalarının rayonlaşdırılması", "Arıçılıq təsərrüfatlarının uçotu", "Arıçılığa dair statistik məlumatların tərtibi və təqdim edilməsi" Qaydaları və "Arı xəstəliklərinin müalicəsində istifadə edilən dərman vasitələrinin" Siyahısı təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 27 fevral tarixli Qərarı ilə "Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi" və "Aqrar sığorta predmetinin Tərkibi"nə daxil olan kənd təsərrüfatı bitkiləri, bitkiçilik məhsulları, heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlara görə hesablanmış sığorta məbləğinin və sığortahaqqının təsdiq edilməsi barədə Qərar qəbul edilmişdir. Həmin qərara əsasən muxtar respublika üzrə bitkiçilik və heyvandarlıq sahələrində aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi və sığortanın məbləği təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

1 mart – Ümumdünya Mülki Müdafiə Günüdür

# Muxtar respublikada mülki müdafiə işinin təşkili diqqət mərkəzindədir

***Hər il martın 1-i Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir. Bu günün qeyd olunmasında məqsəd dünya ictimaiyyətinin diqqətini mülki müdafiə xidmətlərinin təşkilinə, insanların və onların əmlakının xilası, təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin qorunmasına yönəltməkdir.***



Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə əhalinin təbii və texnogen fəlakətlərdən etibarlı mühafizəsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bu sahədə zəruri qanunvericilik bazası yaradılmış, 1997-ci il iyunun 10-da "Yanğın təhlükəsizliyi haqqında", həmin il dekabrın 30-da isə "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə mülki müdafiə xidmətinin maddi-texniki bazası xeyli gücləndirilmiş, mütəxəssis hazırlığı günün tələbinə uyğun qurulmuşdur. 2005-ci il dekabrın 16-da ölkəmizdə Fövqəladə Hallar Nazirliyinin yaradılması ilə bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması muxtar respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması baxımından atılan mühüm addımlardan biridir. Fövqəladə Hallar Nazirliyi və onun yerlərdəki strukturları üçün müasir inzibati binalar tikilib istifadəyə verilmiş, şəxsi heyətin sosial təminatının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Belə ki, 2012-ci ildə nazirliyin yeni inzibati binası istifadəyə verilmiş, binada müasir xidmət şəraiti, elektron nəzarət və idarəetmə sistemləri yaradılmışdır. Həmçinin 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələri, 2013-cü ildə Şərur və Babək Rayon şöbələri, 2014-cü ildə isə Sədərək Rayon Şöbəsi üçün yeni inzibati binalar və texniki qarajlar istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır. Mülki Müdafiə Alayının təlim mərkəzində döyüş hazırlığı məşğələlərinin, təlim və məşqlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanması, istismarı və texniki xidmət göstərilməsi üçün müasir avtomobil parkı istifadəyə verilmiş, peşəkar xilasedicilərin hazırlanması məqsədilə təlim mərkəzi yaradılmış və onun ərazisində vertolyot meydançası tikilmişdir.

Muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi və nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarının aparılması, zərərçəkmişlərə ilk yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılmış və bu sahədə fəaliyyətin nümunəvi təşkili üçün zəruri addımlar atılmışdır. Muxtar respublika ərazisində baş verməş təbii, texnogen hadisələrin statistikasının aparılması, belə hadisələrə çevik reaksiyanın verilməsi məqsədilə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və ***"112"*** qaynar telefon xətti yaradılmışdır.

Muxtar respublikada tikinti sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə 2010-cu ildən etibarən Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi fəaliyyətə başlamış, onun nəzdində mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılaraq ən müasir sınaq avadanlıqları və cihazları ilə təchiz edilmişdir. Şəxsi heyətin yaşayış və mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, Naxçıvan şəhərində nazirliyin zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası tikilmiş və 2017-ci il yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı ilə şəxsi heyətin istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" nəşr olunmuşdur. 6 bölmədən ibarət olan atlasda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsi müəyyən edilmiş, eyni zamanda muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı göstəricilər, infrastruktur obyektləri barədə məlumatlar, müxtəlif miqyaslı inzibati və coğrafi xəritələr verilmişdir. Atlasda muxtar respublika ərazisində ehtimal olunan daşqın-subasma hadisələri, çöl yanğınları, təhlükəli hidrometereoloji hadisələrdən olan doluvurma, anomal aşağı temperaturlar, eroziya və sürüşmə prosesləri, torpaqların şoranlaşması, güclü küləklər, su qıtlığı təhlükəsi və atmosfer quraqlığı da öz əksini tapmışdır. Bundan başqa, atlasda təbii fövqəladə hal mənbələrinin mövcudluğu, yayılma arealı və təhlükəsi, əvvəlki illərdə muxtar respublikada baş vermiş bu tip təbii fəlakətlər, onların vurduğu ziyan haqqında statistik məlumatlar yer alır. Fövqəladə hallar atlası fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, bu zaman fəaliyyət üzrə idarəetmə orqanlarının və qüvvələrinin fəaliyyətinin planlaşdırılması, təşkili baxımından müstəsna əhəmiyyət kəsb edir.

Nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılmış, ötən il 7 yanğınsöndürmə avtomobili, 2 əməliyyat-minik avtomobili, 62 adda xüsusi təyinatlı avadanlıqlar və əşya-əmlaklar alınıb gətirilmişdir. Struktur qurumların yaşayış və qeyri-yaşayış sahələrində təmir, yenidənqurma işləri davam etdirilmiş, Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binasının və texniki qarajının tikintisinə başlanmışdır.

Fövqəladə hallar zamanı təxliyə (evakuasiya) olunan əhalinin və zərərçəkənlərin tələbatının ödənilməsi, yaşayışın və qidalanmanın normal təşkil edilməsi, habelə ehtimal olunan radioaktiv, kimyəvi və bioloji zəhərlənmələr zamanı əhaliyə vaxtında fərdi mühafizə vasitələrinin paylanması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, Mülki Müdafiə Alayında mülki müdafiə səfərbərlik ehtiyat anbarı yaradılmış, yaşayış binalarının zirzəmiləri təmir edilərək fərdi mühafizə vasitələri anbarı kimi uyğunlaşdırılmış, əhalinin yaş kateqoriyasına uyğun mühafizə vasitələri, radiasiya və kimya kəşfiyyatı cihazları tədarük olunaraq fövqəladə hallar komissiyalarının sədrlərinə təhvil verilmişdir. Muxtar respublika ərazisində radioaktiv, kimyəvi və bioloji çirklənmə şəraitində nazirliyin mülki müdafiə qüvvələrinin fəaliyyət göstərməsi üçün müasirtipli radiasiya axtarış və ölçü cihazları alınıb gətirilmiş, bu cihazlarla işləyən mütəxəssislərin hazırlığı ixtisasartırma kurslarında təkmilləşdirilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir".***

Fövqəladə Hallar Nazirliyi bundan sonra da mülki müdafiə işinin müasir tələblər səviyyəsində qurulması, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması istiqamətində zəruri tədbirləri həyata keçirəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

---

# Ümumdünya Mülki Müdafiə Günü münasibətilə maarifləndirici tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsi Fövqəladə Hallar Nazirliyi ilə birgə 1 mart – Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş tədbir keçirib.*



Tədbirin keçirilməsində məqsəd iştirakçılara mülki müdafiənin məqsəd və prinsiplərinin çatdırılması və həyata keçirilməsinin əhəmiyyətini bir daha xatırlatmaq olub.

Tədbiri giriş sözü ilə açan fondun aparat rəhbəri Rafiq Novruzov belə tədbirlərin mütəmadi olaraq həyata keçirilməsinin vətəndaşların təhlükəsizliyinin təmin edilməsindəki önəmini vurğulayıb.

Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin baş məsləhətçisi Əbülfəz Qafarov çıxış edərək muxtar respublikanın mülki müdafiə sistemi, eləcə də mülki müdafiə təbliğatı və əhalinin fəlakət riskinin qarşısının alınması barədə ətraflı məlumat verib. Çıxışda fövqəladə hadisələr zamanı xəsarət alanlara yerində ilk tibbi yardımın göstərilməsi, yanğınların qarşısının alınması, yanğına səbəb olan amillərin aradan qaldırılması və digər məsələlərdən bəhs olunub. Həmçinin nəzəri biliklərin və praktik vərdişlərin təkmilləşdirilməsi, fövqəladə hallar zamanı təxliyənin təşkili qaydalarına xüsusi diqqət yetirilməsi tövsiyə edilib.

Bildirilib ki, gündəlik həyatımızda baş verəcək hadisələrə hər zaman hazır olmalı və davranış qaydalarını bilməliyik. Bu davranış qaydalarını bilməklə və ətrafdakı insanlara öyrətməklə dəyən ziyanı minimuma endirmək və daha az insanın xəsarət almasına nail olmaq mümkündür. Bu səbəbdən əhalinin maarifləndirilməsi, müxtəlif ekstremal vəziyyətlərdə əvvəlcədən hazırlıqlı olması, özünə və qarşılıqlı yardım qaydaları və üsullarını bilməsi mühüm şərtlərdən biridir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin mətbuat xidməti***

---

# Şagirdlər ilk tibbi yardım qaydaları ilə tanış olublar

*Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin həkim, rezident və tələbələrinin "Sağlam ol!" layihəsi çərçivəsində ümumtəhsil məktəblərinin şagirdləri ilə görüşü, praktik təcrübələr və "İlk tibbi yardım" simulyasiyasının təqdimatı keçirilib.*



Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov qeyd edib ki, muxtar respublikada təhsil sistemində aparılan islahatlar, müasir informasiya-kommunikasiya texnologiyaları ilə zənginləşən müasirtipli məktəblər təhsilin inkişafına öz bəhrələrini verir.

Tibb fakültəsi haqqında məlumat verən dekan, dosent Elsevər Əsədov bildirib ki, göstərilən dövlət qayğısının nəticəsidir ki, bu gün 20 ildən artıq təcrübəsi olan fakültənin məzunları Naxçıvanda və onun hüdudlarından kənarda – Amerika Birləşmiş Ştatları, Braziliya, İspaniya, Almaniya, İtaliya, Türkiyə və digər ölkələrdə təhsillərini davam etdirərək muxtar respublika səhiyyəsinin inkişafına öz töhfələrini verirlər.

Kardiologiya ixtisası üzrə II kurs həkim-rezident Sara Əzizli qazandığı təcrübəyə görə ali təhsil aldığı universitetə və təcrübə keçdiyi muxtar respublika xəstəxanalarına borclu olduğunu diqqətə çatdırıb.

Sonra Ümumi təbabət və gigiyena kafedrasının baş müəllimi, həkim-anestezioloq-reanimatoloq Bəxtiyar Hüseynovun rəhbərliyi ilə "İlk tibbi yardım" simulyasiya nömrələrinin təqdimatı olub. İlk tibbi yardım, həkim gələnə qədər xəstəyə kömək göstərmək qaydaları haqqında məlumat verilib. Sonra isə slaydlar vasitəsilə "Yuxarı tənəffüs yollarına yad cismin düşməsi zamanı nə etməli", "Ürək tutması və zəhərlənmələr zamanı ilk tibbi yardım haqqında" Müalicə işi ixtisası üzrə III kurs tələbələri Ülviyyə Məmmədova, Suada Vahabova, Şahmar Abdiyev təqdimatlar ediblər.

Tibbi profilaktika ixtisası üzrə IV kurs tələbələri Şəbnəm Göyüşova, Süräyya Pərvərəş isə qazlı içkilərin orqanizmə zərərlərindən, bir çox içkilərin tərkibində olan və dadlandırıcı keyfiyyətə malik olan aspartamın zərərli xüsusiyyətlərindən danışıblar.

Sonda universitetin həkimləri, həkim-rezidentləri, müvafiq ixtisas üzrə yuxarı kurs tələbələri şagirdlərdə müxtəlif müayinələr aparıblar.

**Səadət ƏLİYEVA**

---

# *"Gənclərdə büdcə savadlılığı"* layihəsi çərçivəsində təlim



***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Musiqi Kollecində tələbələr üçün təlim keçirilib.***

Proqrama uyğun olaraq Maliyyə Nazirliyinin əməkdaşı Ramil Hüseynov tərəfindən "Dövlət büdcəsini anlayaq" mövzusunda hazırlanmış təlim materialı təqdim olunub. Elektron materiallar vasitəsilə Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi, dövlət büdcəsinin layihəsinin tərtibi, müzakirəsi, təsdiqi, icrası, icrasına nəzarət və büdcədənkənar fondlar, ehtiyat fondları haqqında ətraflı məlumat verilib.

Maliyyə Nazirliyinin digər əməkdaşları Xəlil Vəlizadə və Qənbər Xudiyev tərəfindən "Fərdi və ailə büdcəsinin tərtibi, tətbiqi" mövzusunda təlim keçilib. Mövzuya müvafiq olaraq fərdi büdcənin effektiv planlaşdırılmasının məqsəd və əhəmiyyəti, ailə büdcəsinin təhlil olunmasının vacibliyi, xərclərin müəyyən edilməsi və təhlili, pulun idarə olunması və xərclərin gəlirlərə uyğun qurulması işlərinin əhəmiyyəti barədə danışılıb.

Sonuncu mərhələdə isə tələbələrin bu mövzular ətrafında bilik səviyyələrinin yoxlanılması məqsədilə interaktiv mərhələ keçirilib. Bu mərhələdə 4 komanda iştirak edib və iştirakçılara mərhələnin nəticələrinə müvafiq fərqləndirici sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

*Müasir dövrümüzdə dünyada könüllülük hərəkatı cəmiyyətin aparıcı qüvvələrindən birinə çevrilib. Əslində, türk mədəniyyətinin məhək daşlarından birini təşkil edən könüllülük fəaliyyətini bu gün ölkəmizdə ən aktiv, innovativ proseslərdən hesab etmək olar. Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra respublikamızın güclü bir dövlətə çevrilməsində, insanların rifahının getdikcə yaxşılaşmasında könüllülər də mühüm rol oynayıblar. Davamlı inkişaf təmin olunmuş respublikamızda son illərdə könüllülük hərəkatı sağlam vətəndaşlıq mövqeyinin göstəricisi kimi daha çox diqqət çəkir. Bu sahənin təbliğ və təşviqinə dövlət dəstəyi də artırılır. Elə ölkə başçısı cənab İlham Əliyevin 2019-cu il dekabrın 30-da “Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında” Sərəncamı bunun bariz ifadəsi, göstərilən dövlət qayğısının məntiqi davamıdır.*

**2020-ci il “Könüllülər ili”dir**

# Könüllülük sağlam vətəndaşlıq mövqeyinin göstəricisidir



Könüllülük nədir? Öncə buna bir nəzər salaq. Məlum olduğu kimi, Azərbaycan Respublikasında 2009-cu ildə Milli Məclis “Könüllü fəaliyyət haqqında” Qanun qəbul edib. Həmin qanunda göstərilir ki, könüllülük fəaliyyəti – Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən, əsas iş yeri ilə bağlı olmayan işlərin görülməsi, xidmətlərin göstərilməsi və digər dəstəyin verilməsi üçün ictimai faydalı və əvəzi ödənilməyən fəaliyyətdir. Deməli, könüllü olan biri edəcəyi bütün xidmətləri qarşılığında heç bir gözləntisi olmayan şəxsdir.

Bəli, könüllülük öz iradəsi və sərbəst seçimi ilə heç bir maddi marağa əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqaməti hesab olunur. XX əsrin ikinci yarısından etibarən könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək BMT könüllüləri tərəfindən koordinasiya olunmağa başlayıb və beləliklə, könüllülük dünyada kütləvi bir sosial fəaliyyətə çevrilib.





Könüllülük həyata keçirdiyi işlə özünü xoşbəxt hesab edənlərin xəyallarında qurduqları məqama çatmalarıdır. Bu məqamda qəlbləri ovundurmaq, tənhalığı bölüşmək, qayğıya ehtiyacı olanlarla dostlaşmaq, onların dərdinə şərik olmaq, kasıblara əl tutmaq, çöhrələrə təbəssüm bəxş etmək kimi insani hisslər yer alır. Könüllülük həyatını gözəlləşdirmək istəyən insanın başqalarını düşünməsi və onların xoşbəxtliyi üçün çalışmasıdır. Sevgi və şəfqət bizə insani duyğuları bəxş edən iki əsas özəllikdir. Könüllülük bir insanın bilik, təcrübə, bacarıqlarını, könlündəki sevinci, ruhundakı şəfqət və aydınlığı başqa insanlara – bütün varlıqlara verə bilmək üçün arzu, istək içində olmasıdır. Və bunları davamlı hala çevirməsidir.

Bəs könüllülük fəaliyyətinin töhfələri nədən ibarətdir? Könüllü fəaliyyətin həm şəxsi inkişafa, həm də cəmiyyətə xeyli faydası var. Bunun birincisi insanın özünə faydasıdır. Könüllü olmaq istəyən şəxs, ilk növbədə, insanlara və ətraf mühitə qarşı həssas davranmağı öyrənir, komanda işi, motivasiya olma və motivasiya edə bilmə bacarığı kimi gözəl keyfiyyətləri əxz edir. Eyni zamanda könüllü olarkən insan özü də hiss etmədən böyük həyat təcrübəsi keçir, kamilləşir, müdrikləşir. Bu fəaliyyət vasitəsilə insanlarla ünsiyyət qurulur, yeni dostlar qazanılır. Başqalarına hörmət etmək, səbirli olmaq, liderlik kimi xüsusiyyətlər də bu fəaliyyət vasitəsilə əldə olunur. Könüllülük, həmçinin fiziki, sosial, psixoloji və emosional cəhətdən insanlara təsir edir, onların inkişafında böyük rol oynayır.

Belə fəaliyyətin cəmiyyətə faydalarından danışarkən, demək olar ki, könüllülük cəmiyyətdə insanlararası münasibətlərin möhkəmlənməsində, mənəvi dəyərlərin qorunmasında, ictimai məlumatlılığın artmasında, yaranan sosial problemlərin həllinə fərqli yanaşmaların formalaşmasında çox əhəmiyyətli faktordur. Könüllü fəaliyyətlər, xüsusilə gənclərin daha yaxşı bir karyera qurmasına da kömək edir. Çünki onların əksəriyyəti könüllü olmayanlara nisbətən daha tez və yaxşı iş tapa bilirlər. Bunun səbəbi ondadır ki, könüllü kimi çalışmış insanlar daha təcrübəli, nəzakətli, alicənab, ünsiyyət bacarıqlarına malik olmaları və cəmiyyətdə baş verən hadisələrə daha çevik reaksiya vermələri ilə fərqlənirlər. Onu da xüsusi vurğulamaq yerinə düşər ki, bu hərəkata ailəliklə qoşulmağın da müsbət tərəfləri var. Belə ki, ailə üzvləri ilə birlikdə könüllü fəaliyyətdə olmaq onlar arasında əlaqələrin və özünü ifadəetmə qabiliyyətinin güclənməsi ilə nəticələnir.

Hər bir insanın ən böyük arzusu, təbii ki, həm mənəvi, həm də fiziki cəhətdən sağlam olmasıdır. Könüllülüyün insanlara məqsədləri istiqamətində işləmək imkanı verdiyini və onların bir amal üçün səy göstərdikləri zaman özlərini psixoloji cəhətdən daha yaxşı hiss etdiklərini əsas götürsək, deyə bilərik ki, könüllülük həm də onlara sağlamlıq bəxş edir. Belə fəaliyyətə vaxt ayıran insanların daha xoşbəxt və sağlam olduqları müşahidə edilib. Xüsusən də yaşlı insanlar üçün bunun idman fəaliyyətlərindən daha təsirli olduğu bilinməkdədir. Könüllü yaşlıların fiziki cəhətdən möhkəm olduqları və uzun ömür yaşadıqları da aşkarlanıb.

Könüllülük insanı həvəsləndirir, ona mənəvi zövq verir, özünəinam hissini artırır. Görəcəyi işdən heç bir ödəniş almayacağını düşünən insanlar sevdikləri bir sahəni seçirlər və burada könüllülük daxilində xidmətlər göstərirlər. Və yaxud bir layihə üzərində işləyir, bundan həvəslənir və bu işi daha yaxşı vəziyyətə gətirmək üçün əllərindən gələni edirlər. Məsələn, hər hansı sosial layihədə iştirak edən bir nəfərdən bu fəaliyyətindən sonra nə hiss etdiyi soruşularsa, çox böyük ehtimalla cavabı “möhtəşəmlik” olacaqdır. Könüllülər bir komandanın üzvü olma hissini yaşadıqları və bir dəyişiklik, yardım, yenilik etdiklərini düşündükləri üçün motivasiyaları da yüksək olur. Gördükləri işlə onlar müxtəlif üstünlüklərə sahib olurlar. Bu uğurlar nəticəsində qazandıqları mənəvi zövq onları könüllü olaraq daha çox yaxşılıq etməyə, yaradıcı fəaliyyət göstərməyə təşviq edir. Digər bir tərəfdən isə işləməyən, heç bir iş təcrübəsi olmayan və asanlıqla ünsiyyət qura bilməyən insanlar könüllülər və yenicə çalışdığı sahədə mütəxəssis bir komanda ilə işləməyə başlayanda özlərinə inamlarını artırır və sosial fəallıqları bu cür qurumlarda işləməyənlərdən çox üstün olur.

Komanda işi olan könüllülük həm də birgə fəaliyyəti, həmrəyliyi aşılayır. Bir komandada işləyən könüllülər müəyyən bir məqsəd və planı həmrəyliklə, necə deyərlər, söz, güc birliyi ilə həyata keçirməklə birgə işləmək təcrübəsinə sahib olurlar. Hər dəfə üzərlərinə götürdükləri belə vəzifələr həm də onların hər birində fərdi şəkildə liderlik və lider olma keyfiyyətlərini inkişaf etdirir.

Fəaliyyətləri könüllülərə sosial status da qazandırır. Yaşadıqları ölkə üçün çalışan könüllülər həmişə başqalarına nümunə göstərilir, cəmiyyətdə həssas insanlar kimi dəyərləndirilirlər. Ancaq bunu da bilməkdə fayda var ki, digərlərinə örnək göstərilməsi və ya onlara hörmət edilməsi heç vaxt könüllülərə digər insanlardan üstün olmaq hüququ vermir. Könüllü həmişə təvazökar olmalı və fəaliyyəti genişləndikcə də bu cür qalmalıdır.

Könüllülük fəaliyyətinin daha üstün və gözəl keyfiyyətlərindən birinə də nəzər salaraq demək istəyirik ki, gənc qızlar və oğlanlar böyük bir kollektivdə yaşları daha böyük və daha kiçik könüllü yoldaşlarının əhatəsində düzgün davranış qaydalarını mənimsəyirlər. Bir-birlərinə hörmətlə yanaşmağı, qayğı göstərməyi, kömək etməyi öyrənən gənclər sabah öz ailələrində də bu prinsiplərə sadiq qalacaqlar.

Hazırda bütün dünyada minlərlə könüllü təşkilatı və könüllülük fəaliyyəti ilə məşğul olan insan var. Hər gün bu say daha da artır. Həmrəylik, xeyirxahlıq, kollektivçilik bir ənənə olan ölkəmizdə də könüllü fəaliyyətlə məşğul olanların, xüsusilə gənclərin sayı hər il daha da çoxalır.

Təbii ki, muxtar respublikamızda da könüllülük fəaliyyəti aktiv sahələrdən birinə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada könüllülük fəaliyyətinin təşviqinə marağı artırıb. Bu gün muxtar respublika gənclərinin bütün sahələrdə fəallığı, startap layihələri üzərində işləmələri, onların dövlət qulluğu, sosial, ekoloji və digər sahələrdə könüllü fəaliyyətləri, keçirilən festivallarda, idman yarışlarında kütləvi iştirakları, fləşmob nümayiş etdirmələri deməyə əsas verir ki, yaxın gələcəkdə onların bu fəaliyyəti daha da genişlənəcəkdir.

***Əminliklə demək olar ki, ölkəmizdə “Könüllülər ili” olan 2020-ci il muxtar respublikada gənclərin könüllü fəaliyyətlərinin ən gözəl nümunələri ilə yadda qalacaqdır. Çünki artıq gənclərin enerji və həvəsləri ilə bu prosesin aparıcı qüvvəsi olduqları hiss edilir. Nəzərə alsaq ki, könüllülüyün həm hər bir gəncə, həm də cəmiyyətə faydası çox böyükdür, biz bütün gəncləri bu misilsiz təşəbbüsə qoşulmağa çağırırıq: Əziz gənclər, könüllü olaraq dəyişməyə kömək edin!***

**Arzu QASIMOV**
**Fərid SEYİDOV**
*Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun Gənclər təşkilatları və gənclər ilə iş şöbəsinin əməkdaşları*

# Naxçıvanda əhaliyə nümunəvi poçt rabitəsi xidməti göstərilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muxtar respublikanın dinamik iqtisadi inkişaf və tərəqqisi poçt rabitəsi xidmətinin də səviyyəsinin yüksəlməsinə və maddi-texniki bazasının gücləndirilməsinə şərait yaratmışdır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublika sakinləri mütərəqqi poçt rabitəsi xidmətləri ilə təmin olunmuş, xidmətin səviyyəsi ildən-ilə yüksəldilmişdir.***

“Naxçıvanpoçt” publik hüquqi şəxsin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 4 noyabr tarixli Sərəncamı isə bu sahədə görülən işlərin miqyasını daha da artırmışdır. Hazırda muxtar respublika ərazisində ən geniş xidmət şəbəkəsinə malik olmaqla, əhalinin bütün qruplarına, eləcə də hüquqi şəxslərə münasib qiymətlərlə poçt xidmətləri göstərilir. Poçt bölmələrinin fəaliyyəti üçün rayon mərkəzlərində və yeni inşa edilmiş kənd xidmət mərkəzlərində hərtərəfli şərait yaradılmış, poçt göndərişlərinin ünvan sahiblərinə operativ çatdırılması üçün poçt şöbələri nəqliyyat vasitələrilə təmin edilmişdir. Muxtar respublika üzrə “Naxçıvanpoçt” publik hüquqi şəxsin aparatının Poçt şöbəsi, 7 rayon filialı və 175 poçt bölməsi fəaliyyət göstərir. Onların da zəruri avadanlıqlarla təchizatı göstərilən xidmətlərin yüksək keyfiyyətinə və etibarlılığına təminat vermiş, “Naxçıvanpoçt” publik hüquqi şəxsin müvafiq şəbəkəsinə qoşulması təmin edilmişdir. Poçt məntəqələrində istehlakçılardan istifadə etdikləri elektrik, qaz, su sərfiyyatı haqlarının yığılması və sayğacların smartkartlarının balansının artırılması, sabit şəbəkə telefonlarından istifadəyə görə aylıq abunənin və danışıq haqlarının, internet abunəçilərinin balansının artırılması xidmətindən istifadə haqlarının, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaqları olan torpaq mülkiyyətçilərindən məcburi dövlət sosial sığorta haqlarının, partiyaların, ictimai təşkilatların və ictimai birliklərin üzvlük haqlarının, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi tərəfindən tərtib edilmiş protokollara əsasən cərimələrin, yerli (bələdiyyə) vergilərin, habelə bank və bank olmayan kredit təşkilatına kredit borclarının ödənişləri həyata keçirilir. Bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsi tərəfindən kənd yerlərində yaşayan əmək pensiyaçılarına pensiyalarının poçt bölmələri vasitəsilə çatdırılması təmin olunur. Həmçinin Naxtel 4G mobil operatoru ilə bağlanılmış müqaviləyə əsasən nömrələrin və danışıq kartlarının satışı həyata keçirilir, Hökumət Ödəniş Portalı vasitəsilə Azərbaycan Respublikası üzrə bank, maliyyə, vergi və digər qurumların ödənişlərinin qəbulu da poçt məntəqələrində həyata keçirilir. Məntəqələrdə nağdsız ödənişlərin təşkili üçün 179 POS-terminal aparatı qoyulmuşdur.

Son illər texnologiyanın inkişaf etməsi elektron imzadan istifadənin aktuallığını artırır, vaxta qənaət etməyə imkan yaratdığı qədər həm də harada olmasından asılı olmayaraq, hər hansı bir sənədi imzalayaraq istənilən məsafəyə tam təhlükəsiz olaraq göndərməyə imkan verir. Bundan başqa, dövlət qurumları, hüquqi şəxslər, sahibkarlar və vətəndaşlar müəyyən elektron xidmətlərdən hər hansı sayt üzərindən istifadə etmək üçün elektron imzadan yararlana bilirlər. Bu məqsədlə “Naxçıvanpoçt” publik hüquqi şəxsin aparatında server, kompüterlər, kart və pinkodların çapı üçün xüsusi printerlər qoyulmuşdur. Əhalinin müasir poçt xidmətlərinə olan tələbatının həyata keçirilməsi, həmçinin poçt xidmətlərinin dünya standartları səviyyəsinə uyğunlaşdırılması məqsədilə aparılan təhlillərin əsasında bir sıra tədbirlər ardıcıl şəkildə davam etdirilir.



Naxçıvanda beynəlxalq poçtdaşımaların həyata keçirilməsi üçün “Express Mail Servis” və “DHL” beynəlxalq ekspress poçt xidmətləri fəaliyyət göstərir. Bu da poçt göndərişlərinin ən qısa zamanda ünvana etibarlı çatdırılmasını təmin edir. Eyni zamanda göndərişlərin hansı məntəqədə olduğunun internet üzərindən izlənməsinə də imkan vardır.

Muxtar respublikada onlayn ticarətin inkişafı poçt rabitəsi xidmətləri üzrə daşımaların həcminin artmasına da təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada həyata keçirilən hərtərəfli inkişaf, sürətlə gedən tikinti-quruculuq işləri nəticəsində poçt sahəsinin maddi-texniki bazası davamlı olaraq möhkəmləndirilir, yeni poçt bölmələri istifadəyə verilir. Dövlətimiz tərəfindən yaradılan şərait, çəkilən zəhmət hər bir poçt işçisinin qarşısına muxtar respublika sakinlərinə nümunəvi poçt rabitəsi xidmətlərinin göstərilməsi, ən əsası isə vətəndaş məmnunluğunun təmin edilməsi kimi mühüm vəzifələr qoyur.

*“Naxçıvanpoçt” publik hüquqi şəxsin mətbuat xidməti*




***Görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə ikinci dəfə rəhbərliyə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, fiziki tərbiyə sahəsində də həyata keçirilən tədbirlər yeni forma və məzmun kəsb etməyə başladı, belə tədbirlərin reallaşdırılması, davamlı xarakter alması günün zərurətinə çevrildi. Yeni idman obyektlərinin istifadəyə verilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi, bacarıqlı idmançıların üzə çıxarılaraq düzgün istiqamətləndirilməsi, müxtəlif yarışlarda onların iştirakının təmin edilməsi diqqətdə saxlanıldı. Bütün bunlar Azərbaycanın idman ölkəsinə çevrilməsinə şərait yaratdı. Bunu muxtar respublikamızın timsalında da görə bilərik. Artıq diyarımızda güclü idman infrastrukturu formalaşdırılıb, qədim Naxçıvan torpağı ölkə və beynəlxalq səviyyəli yarışların keçirildiyi bir məkana çevrilib. İdmançılarımızın müxtəlif yarışlarda qazandıqları yüksək mükafatlar hamımızı sevindirir. Həmin idmançıların yetişməsində Naxçıvan Dövlət Universitetinin də böyük rolu var.***

## Muxtar respublikamızda idman mütəxəssisləri və idmançıların hazırlanması ilə bağlı qarşıda mühüm vəzifələr durur

Ali təhsil ocağında yeniləşmə prosesinin müsbət nəticələri uzun illərdir ki, öz bəhrəsini verməkdədir. 1995-ci ildə Mühəndis-pedaqoji fakültəsinin tərkibində Fiziki tərbiyə və ilkin hərbi hazırlıq ixtisasının və 1997-ci ildə Bədən tərbiyəsi və idman ixtisasının açılması həm universitetdə fiziki tərbiyə işinin yaxşılaşmasına, həm də muxtar respublikamız üçün mütəxəssislərin hazırlanmasına xeyli köməklik göstərdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində universitet stadionunun, açıq idman bazasının, müasirtipli Olimpiya Mərkəzinin tikilib istifadəyə verilməsi idmanın inkişafında yeni mərhələnin əsasını qoydu. Ali təhsil ocağında fiziki tərbiyə işinin genişlənməsi ilə əlaqədar olaraq Fiziki tərbiyə və idman oyunları kafedrası, İdman klubu yaradıldı. İndi Naxçıvan Dövlət Universitetində tələbələrin fiziki tərbiyəsi ilə məşğul olan Bədən tərbiyəsi və idman kafedrasında 5 dosent, 11 baş müəllim, universitet İdman klubunun nəzdində isə müxtəlif idman növləri üzrə 13 məşqçi-müəllim fəaliyyət göstərir, hər il orta hesabla 70-80 ixtisaslı bədən tərbiyəsi mütəxəssisi hazırlanır.

Universitetdə fiziki tərbiyə və idman işinin səmərəli təşkili üçün güclü maddi-texniki baza yaradılıb. Tələbələrin ixtiyarına 2 idman, 2 stolüstü tennis, 1 trenajor zalı, 2 şahmat otağı, 1 böyük, 1 mini-futbol meydançası verilib.

Həyata keçirilən bütün tədbirlər diyarımızda ixtisaslı məşqçi-müəllimlərin yetişdirilməsi işinə xidmət edir. Universitetin məzunu olmuş, bir sıra beynəlxalq və ölkə çempionatlarında iştirak etmiş və yüksək nəticələr göstərən idmançıların xeyli hissəsi hazırda muxtar respublikanın idman təşkilatlarında və idman məktəblərində fəaliyyət göstərirlər.

Hər il, ənənəvi olaraq sentyabr-oktyabr aylarında ali təhsil ocağının I kurs tələbələri arasında idmanın müxtəlif növləri üzrə seçmə yarışlar keçirilir. Bu yarışların məqsədi idmanın kütləviliyinə nail olmaq, istedadlı tələbələri universitetdə fəaliyyət göstərən idman məşğələlərinə cəlb etməkdən ibarətdir.

Müxtəlif idman növləri üzrə fakültələrin apardığı işin keyfiyyətini müəyyənləşdirmək və yığma komandaları bacarıqlı idmançılar hesabına komplektləşdirmək məqsədilə universitet tələbələri arasında universiada və çempionatlar keçirilir.

Universitetdə idmanın sərbəst güləş, cüdo, voleybol, badminton, stolüstü tennis idman növləri üzrə ictimai hakimlər və məşqçilər hazırlamaq imkanı var.

Ali təhsil ocağında fəaliyyət göstərən idman mütəxəssislərinin işi yüksək qiymətləndirilir. Onlar dövlətimiz tərəfindən müxtəlif fəxri adlara və mükafatlara layiq görülürlər.

“Əqlin gimnastikası” adlandırılan şahmat idman növünün inkişafı daim diqqət mərkəzində saxlanılır. Belə ki, ali təhsil ocağında iki şahmat otağı yaradılıb. Burada məşğul olan tələbələrimizdən Toğrul Həsənzadə “Beynəlxalq usta”, Pərviz Məmmədov və Sadiq Məmmədov isə “Fide usta” adına layiq görülüblər. Hər il iki dəfə şahmat üzrə universitet birinciliyi keçirilməsi artıq ənənə şəklini alıb.

Son illərdə voleybol, futbol, badminton, cüdo, sərbəst güləş, atletika, boks, stolüstü tennis, basketbol və sair idman növlərinin də inkişafına diqqət xeyli artırılıb. Bu da gələcək idman mütəxəssislərinin müxtəlif səviyyəli idman yarışlarına cəlbinə imkan verib.

Təbii ki, bütün bunlar ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi idman siyasətinin muxtar respublikada uğurla həyata keçirilməsinin ifadəsidir. 2020-ci il fevral ayının 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr ” haqqında müşavirə də bunun davamıdır. Müşavirədə muxtar respublikada bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti geniş şəkildə təhlil edilib və qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müşavirədə çıxış edərək deyib: ***“Ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan idman siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq bu gün Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır. İldən-ilə idman nəticələrimiz, uğurlarımız artmaqda davam edir, formalaşan güclü idman infrastrukturu ölkəmizi idman ölkəsinə və beynəlxalq yarışların keçirildiyi mərkəzə çevirir”.***





Qarşıya qoyulan məsələlərdən biri muxtar respublikamız üçün yeni olan xizəksürmə idman növünün inkişaf etdirilməsinə diqqətin yönəldilməsi olub. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində istifadəyə veriləcək Xizək Mərkəzi muxtar respublikada xizəksürmə idman növünün inkişafı üçün yeni imkanlar yaradacaq. Məlum olduğu kimi, xizəksürmə həm əyləncə, həm sağlamlıq üçün istifadə oluna biləcək bir idman növüdür. Həm də xizəksürmə mövsümü tələbələrin qış tətilinə təsadüf etdiyindən onların səmərəli istirahətləri üçün ən yaxşı vasitələrdən biridir. Universitetimizdə bu idman növünün təbliği və tədrisinin günün tələbləri səviyyəsində qurulması diqqət mərkəzində saxlanılıb.

Müşavirədə qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün universitetdə bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Belə ki, gənclərin fiziki cəhətdən Vətənin müdafiəsinə hazırlanması məqsədilə onların universitetdə təşkil edilmiş idman məşğələlərinə cəlb olunması, hərbi idman oyunlarında və atıcılıq yarışlarında, həmçinin muxtar respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakının təmin edilməsi, İdman klubunun fəaliyyətinin, kadr hazırlığı işinin təkmilləşdirilməsi məqsədilə Bədən tərbiyəsi və idman, Gənclərin fiziki tərbiyəsi və çağırışaqədərki hazırlıq müəllimi ixtisaslarında tədrisin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlərə başlanılıb. Eyni zamanda universiada və çempionatlarda tələbələrin kütləvi iştirakına nail olmaq, ictimai hakim və məşqçilər hazırlanması işini gücləndirmək, tələbələrin asudə vaxtlarının səmərəli təşkili məqsədilə Tələbə evində şahmat və stolüstü tennis idman növləri üçün şərait yaratmaq, universitet stadionunda sadə idman qurğularını müasir tələblər səviyyəsində qurmaq üçün işlər görülür.

İdman sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək məqsədilə qonşu Türkiyə və İran İslam Respublikası universitetləri ilə şahmat, güləş, cüdo, boks, futbol, voleybol, yüngül atletika və digər idman növləri üzrə yoldaşlıq görüşlərinin təşkilinə də diqqət artıb.

Qeyd edək ki, keçirilən tədbirlər sırasında bədən tərbiyəsi və idmanı təbliğ etmək üçün idmanın ayrı-ayrı növləri üzrə maarifləndirici sosial çarxlar hazırlamaq və Universitet televiziyasında nümayiş etdirmək də nəzərdə tutulub.

*Naxçıvan Dövlət Universitetindəki mövcud idman infrastrukturu əminlik yaradır ki, müşavirədən irəli gələn vəzifələrin həlli və “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın icrası istiqamətində üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirə biləcəyik.*

**Məmmədəli RƏHİMOV**
***Naxçıvan Dövlət Universitetinin İdman klubunun sədri, dosent***

## İnternet abunəçilərinin nəzərinə!

İnternet abunəçilərinə bahar müjdəsi!

1 mart 2020-ci il tarixdən etibarən Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən istifadəçilərə göstərilən internet xidmətinin hər bir şəxs üçün əlçatan olmasının təmin edilməsi məqsədilə ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) və GPON (Giqabit Passiv Optik Şəbəkə) internet tariflərində endirim edilmişdir:

**1. ADSL abunəçiləri üçün yeni tariflər**

| Qoşulma sürəti | Aylıq ödəmə (manatla) | Birdəfəlik qoşulma haqqı (manatla) |
|---|---|---|
| 1 Mbit/s | 12 | 10 |
| 2 Mbit/s | 15 | 10 |
| 3 Mbit/s | 18 | 10 |
| 4 Mbit/s | 20 | 10 |
| 5 Mbit/s | 25 | 10 |
| 6 Mbit/s | 30 | 10 |
| 8 Mbit/s | 40 | 10 |

**2.GPON abunəçiləri üçün yeni tariflər**

| Qoşulma sürəti | Aylıq ödəmə (manatla) | Birdəfəlik qoşulma haqqı (manatla) |
|---|---|---|
| 1 Mbit/s | 12 | 10 |
| 2 Mbit/s | 15 | 10 |
| 3 Mbit/s | 18 | 10 |
| 4 Mbit/s | 20 | 10 |
| 5 Mbit/s | 25 | 10 |
| 6 Mbit/s | 30 | 10 |
| 8 Mbit/s | 40 | 10 |
| 10 Mbit/s | 50 | 10 |
| 20 Mbit/s | 70 | 10 |
| 30 Mbit/s | 80 | 10 |
| 40 Mbit/s | 90 | 10 |
| 50 Mbit/s | 100 | 10 |
| 100 Mbit/s | 160 | 10 |

***Əlavə məlumat almaq üçün “116” Müştəri Xidmətinə və www.nakhinternet.az saytına müraciət edə bilərsiniz.***

### İtmişdir

Naxçıvan şəhəri, Atatürk küçəsi, bina 14, mənzil 3-də yaşayan Tağıyev Samir Məmmədnağı oğlunun adına olan 9620 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Məmmədov Hüseyn Məmməd oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Tofiq Ələşrəf oğlunun adına olan evin 0033551 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 209